18 avqust
Dövlət Sərhəd Xidməti Əməkdaşlarının
Peşə Bayramı Günüdür

*Hər bir dövlətin sərhədi onun təhlükəsizliyinin təminatı, suverenliyinin rəmzi, milli iradənin, tarixi yaddaşın təcəssümüdür. Sərhəd xalqın azad yaşamaq hüququnun, varlığının təməli, "bura Vətəndir" deyən bir millətin qürurla çəkilmiş tarixi imzasıdır. Bir körpü kimi xalqları birləşdirən, dövlətlər arasında əlaqə yaradan sərhəd xətti həm də ana yurdu yadellilərin təcavüzündən qoruyan səddir.*



# Sərhədlərin keşiyində:

# Vətənə sədaqətin ali ifadəsi

1919-cu il avqustun 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul olunmuş qərarla Hərbi Nazirliyin tərkibində ilk milli sərhəd mühafizə orqanının yaradılması ölkə sərhədinin mühafizəsi istiqamətində atılan mühüm tarixi addım idi. Yeni yaradılan qoşun bölmələri o dövrdə mövcud mürəkkəb siyasi və hərbi şəraitdə dövlət sərhədinin qorunmasında vacib vəzifə yerinə yetirirdilər. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra sərhəd mühafizəsi Sovet İttifaqının müvafiq strukturlarının tərkibinə verildi. Respublikamızın İran və Türkiyə ilə sərhədində sovet hərbi hissələri və hərbi texnikası yerləşdirildi. Hərbi hissələrin şəxsi heyəti əsasən rus, ukraynalı, belarus və ermənilərdən ibarət idi. Ötən əsrin 70-ci illərində dahi lider Heydər Əliyevin rəhbərliyi ilə milli hərbi kadrların hazırlanmasında çox böyük işlər




görüldü. İran və Türkiyə ilə sərhəd boyunca yerləşən hərbi hissələrdə mövcud problemlərin həllinə xüsusi diqqət yetirildi. Hər il 10-12 azərbaycanlı gənc təhsil almaq üçün ittifaqın tərkibində olan respublikalara göndərilirdi. Ötən əsrin sonlarında xalqımız müstəqilliyini bərpa etdikdən sonra dövlət sərhədlərinin qorunması və möhkəmləndirilməsində həmin dövrdə Moskva, Almatı, Kiyev, Sankt-Peterburq və digər şəhərlərdə yerləşən xüsusi ali təhsil ocaqlarında təhsil almış yüksək rütbəli zabitlər böyük rol oynadılar.

XX əsrin sonlarında təcavüzkar Ermənistan ölkəmizin ərazi bütövlüyünü pozmuş, torpaqlarımızın 20 faizdən çox hissəsi düşmən əlinə keçmişdi. 1988-ci ildə Naxçıvan Muxtar Respublikası Ermənistan tərəfindən blokadaya alınmış, avtomobil və dəmir yolu bağlanmışdı. Mənfur ermənilər sərhədyanı yaşayış məntəqələrini davamlı olaraq atəşə tutur, insanlar öldürülür, girov götürülürdülər. SSRİ-nin 75-ci motoatıcı diviziyası və 41-ci sərhəd dəstəsinin hərbçiləri isə muxtar respublikanı nəinki erməni təcavüzündən qorumur, yeri gəldikdə ermənilərin çirkin əməllərinə dəstək verirdilər. Sovet İttifaqının dağıldığı və dövlət müstəqilliyimizin bərpa olunduğu ilk illərdə ölkə daxilində mürəkkəb, ziddiyyətli hadisələr cərəyan edir, hakimiyyətsizlik, iqtisadi böhran, özbaşınalıq baş alıb gedirdi. Mərkəzdən təlimat alan bəzi qüvvələr xalqı qardaş qırğınına sövq edir, vəziyyəti gərginləşdirməklə ölkənin müstəqil yaşaya bilmədiyini sübuta yetirməyə çalışırdılar.

20 Yanvar faciəsindən sonra Vətənə qayıdan Heydər Əliyev həmin o təlatümlü zamanlarda Naxçıvanın təlükəsizliyini təmin etdi, blokada şəraitində olan muxtar respublikanı ilk növbədə erməni təcavüzündən qorudu. Başda qardaş Türkiyə olmaqla qonşu ölkələrlə əlaqələr möhkəmləndirildi. Həddindən artıq çətin vəziyyətdə yaşayan əhalinin həyat səviyyəsinin yüksəlməsi istiqamətində atılan addımlar qısa zaman kəsiyində müsbət nəticələrini verdi. Ulu Öndərin ətrafında bir yumruq kimi birləşən naxçıvanlılar bütün çətinliklərə sinə gərirdilər. Ümummilli lider Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisin sədri seçildikdən cəmi bir neçə gün sonra Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradılması barədə qərar verdi. Ulu Öndərin rəhbərliyi ilə Komitənin statusu, strukturu, təşkili haqqında qanunvericilik bazası yaradıldı, fəaliyyət istiqamətləri müəyyənləşdirildi və hərbi hissə-



lərin milliləşdirilməsi prosesinə başlanıldı. Bu qərar hər şeydən əvvəl muxtar respublikanın milli qüvvələr tərəfindən müdafiə olunması istiqamətində atılmış təcili və böyük əhəmiyyət kəsb edən addım idi. Beləliklə, Naxçıvanda ilk milli sərhəd qoşunları yaradıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il sentyabr ayının 19-da keçirilən yığıncağında "Naxçıvan Muxtar Respublikasının müdafiəsi və sərhədlərinin qorunması haqqında" məsələyə baxıldı və müvafiq qərar qəbul olundu. Qərara əsasən keçmiş Sovet ordusu muxtar respublikanı tərk edərkən hərbi hissədəki silah-sursatın və texnikanın Azərbaycanın digər bölgələrindən fərqli olaraq tamamilə Naxçıvanda saxlanılması Ulu Öndərin müdrik liderlik qabiliyyətinin göstəricisi idi. Oktyabr ayının 18-də Naxçıvan Sərhəd Dəstəsində gənc əsgərlərin andiçmə mərasimində iştirak edən Ulu Öndər dedi: "Siz müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin edən sərhəd qoşunlarının sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır. Azərbaycan xalqının son 70 ildə xidmətə gedən oğulları daim Sovet ordusuna, Sovet dövlətinə sədaqətlə xidmət edəcəklərinə and içərdilər. Bu, o dövrün xarakterik cəhəti idi. İndi isə bizim üçün ən şərəfli, ən xoşbəxt an ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət olub, Azərbaycan xalqı öz milli azadlığına nail olub və indi müstəqil dövlətin atributlarını yaratmaqla məşğuldur. Bu baxımdan ən mühüm sahə olan Sərhəd Qoşunlarının yaradılması prosesi gedir…

Biz bu gün çox böyük məmnuniyyət hissi ilə müstəqil Azərbaycan dövlətində Sərhəd Qoşunlarının yaranmasını məhz buradan, Naxçıvandan, Azərbaycanın bu qədim diyarından başlandığını qeyd edirik…".

Lakin həmin vaxt paytaxt Bakıda və bölgələrdə vəziyyət getdikcə ağırlaşırdı. Dövlətin sütünlarının möhkəmləndirilməsi, sərhədlərinin toxunulmazlığının təmin olunması istiqamətində lazımi tədbirlər görülmürdü. Məsələn, 1991-ci il dekabr ayının 9-da "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında" Qanun qəbul olunmuş, bir neçə gün sonra isə Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi (DSMK) yaradılmışdı. Amma təəssüf ki, bu qərarlar kağız üzərində qalmış, icrası üçün əsaslı addımlar atılmamışdı. Mövcud vəziyyət-




dən sui-istifadə edən Ermənistan işğal etdiyi torpaqların sahəsini genişləndirmək üçün Moskvadan dəstək alır, gündən-günə daha da azğınlaşırdı. İşğalçı ölkəni və havadarlarını yerində oturdacaq, milləti, dövləti naminə canından belə keçməyə hazır olan böyük şəxsiyyətin ölkəyə rəhbərlik etməsi zərurətə çevrilmişdi. Tarixin keşməkeşlərindən hər zaman mətanətlə çıxan xalqımız bu dəfə də müdriklik göstərdi, dahi Heydər Əliyevi ikinci dəfə hakimiyyətə gətirdi. Xalqın təkidli dəvətini qəbul edən Ulu Öndər hakimiyyətə gəldiyi ilk gündən dövlət quruculuğunun bərpası istiqamətində tarixi qərarlar qəbul etdi. Dövlət sərhədlərinin mühafizəsinin milli əsasda yenidən təşkili, Sərhəd Qoşunlarının döyüş hazırlığı və maddi-texniki təchizatının gücləndirilməsi, Ermənistanın təcavüzü nəticəsində pozulmuş sərhədlərimizin bərpası ən vacib məsələrdən idi. Bu məqsədlə respublikamızın cənub istiqamətində dağıdılmış sərhəd infrastrukturunun bərpası, ölkənin şimal və şimal-qərb sərhədlərində sərhəd məntəqələrinin yaradılması və maddi-texniki bazanın möhkəmləndirilməsi üçün məqsədyönlü tədbirlər görüldü. Sərhəddə mühəndis-texniki qurğuların bərpası, qaçaqmalçılıqla mübarizə, şəxsi heyətin döyüş və siyasi hazırlığının yüksəldilməsi və bütün bunların fonunda dövlət sərhədlərinin etibarlı şəkildə qorunmasının təşkili sahəsində böyük irəliləyişlərə nail olundu. Ümumilikdə milli Sərhəd Qoşunlarının formalaşdığı dövr kimi xarakterizə olunan 1993-2002-ci illərdə bu sahədə bir sıra mühüm işlərə imza atıldı. Belə ki, 1993-cü il martın 3-də Azərbaycan-Gürcüstan sərhədində Zaqatala, 1994-cü il avqustun 15-də Şəmkir Sərhəd Dəstələri, 1995-ci il iyul ayının 11-də isə Azərbaycan-Rusiya sərhədində Şəki Əlahiddə Sərhəd Komendantlığı yaradıldı. Ölkə başçısının 2002-ci il tarixli Fərmanı ilə Sərhəd Qoşunları Milli Təhlükəsizlik Nazırliyinin tərkibindən çıxarıldı və müstəqil Dövlət Sərhəd Xidməti olaraq təsis edildi. Bu addım sərhəd təhlükəsizliyini daha çevik, müasir və müstəqil şəkildə təmin olunmasına imkan verdi. Lakin Sərhəd Qoşunlarının sərhədçi zabitlərlə komplektləşdirilməsi çox böyük problemə çevrilmişdi, ixtisaslı kadrlar çatışmırdı. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yetirmələri Sərhəd Qoşunlarında xidmətə başlasalar da bu, tələbatı tam ödəmirdi. 1993-cü il noyabr ayının 2-də ulu öndər Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonra



SSRİ Sərhəd Qoşunlarında xidmət edən azərbaycanlı zabit və gizirlərin könüllü olaraq vətənə dönmələri bu istiqamətdə mühüm irəliləyişlər yaratdı, nümunəvi xidməti ilə fərqlənən zabit, gizir və əsgərlərin sayı artdı. "Vətən sərhəddən başlayır. Bu, həqiqətdir. Ona görə də sərhəd hər bir müstəqil dövlət üçün çox əzizdir, vacib bir sahədir və təbiidir ki, sərhədin qorunmasında xidmət göstərən hər kəs xalqımızın, millətimizin hörmət və ehtiramına layiqdir" deyən Ümummilli Lider sərhədçilərin fəaliyyətinə hər zaman yüksək qiymət verir, onların maddi-texniki təminatının gücləndirilməsi istiqamətində mühüm qərarlar qəbul edirdi. 1998-ci il dekabr ayının 1-də dövlət başçısı Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması haqqında fərman imzaladı. Ulu Öndərin 2000-ci il 16 avqust tarixli sərəncamı ilə hər il avqust ayının 18-i sərhədçilərin peşə bayramı günü kimi qeyd olunur.

Prezident İlham Əliyev 2003-cü ildən etibarən Ulu Öndər Heydər Əliyevin məqsədyönlü, uzaqgörən siyasətini uğurla davam etdirir. Dövlət başçısının müvafiq fərmanları ilə 2004-cü ildə Naxçıvan sərhəd dəstəsinin bazasında sərhəd diviziyası, bir il sonra isə sərhəd gözətçi gəmilər dəstəsinin əsasında DSX-nin Sahil Mühafizəsi yaradıldı. Həmin il dekabr ayının 27-də "Azərbaycan Respublikasının dövlət sərhədlərinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı" təsdiq edildi. 2007-ci il iyun ayının 12-də Prezident Dövlət Sərhəd Xidmətinin Akademiyasının yaradılması barədə Sərəncam imzaladı.

Bu gün Dövlət Sərhəd Xidmətinin idarəetmə sistemi xeyli təkmilləşdirilmiş, müasir radiorabitə və telekommunikasiya sistemlərinin tətbiqi genişləndirilmiş, Dövlət Sərhəd Xidməti aparatı ilə sərhəd dəstələri arasında peyk rabitəsi sistemi yaradılmışdır. Azərbaycan sərhədçiləri quru sərhədləri ilə yanaşı, həm də Xəzər dənizindəki sərhəd zolaqlarını müasir patrul gəmiləri, hava nəqliyyatı və elektron müşahidə sistemləri ilə qoruyurlar. Sərhədçilərimiz istənilən təhdid və təxribatın, qanunsuz fəaliyyətlərin qarşısını almağa qadirdir. Onların yüksək səviyyədə hazırlığı və fədakarlığı dövlətimizin təhlükəsizliyinin təminatıdır. Bu, 44 günlük Vətən müharibəsində bir daha öz təsdiqini tapdı. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Sərhəd Qoşunları Ali Baş Komandanın döyüş tapşırıqlarını uğurla yerinə yetirdi. DSX xüsusi təyinatlıları strateji körpülərin və kommunikasiya xətlərinin ələ keçirilməsi, dövlət sərhədi boyunca təhlükəsizlik zolağının yaradılması və üçrəngli bayrağımızın tarixi məkanlarda ucaldılmasında misilsiz şücaət göstərdilər. Müharibənin ilk günlərindən DSX bölmələri Araz çayı boyunca irəliləyərək düşmənin müdafiə xəttini yardı, strateji əhəmiyyətli mövqeləri və yaşayış məntəqələrini azad etdi. Əməliyyatlar nəticəsində cənub sərhəd xətti boyu təhlükəsizlik zolağı yaradıldı. Oktyabrın 18-də Xudafərin körpüləri düşməndən təmizləndi və burada Azərbaycan bayrağı qaldırıldı. Oktyabrın 20-də Zəngilan şəhərinin azad olunmasında iştirak etdilər. Mincivan, Babaylı, Üçüncü Ağalı, Sarıl, Xumarlı kimi yaşayış məntəqələrində nəzarət bərpa edildi, logistika və təchizat yolları açıldı. Oktyabrın 22-də Zəngilanın Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan-İran dövlət sərhədinin işğalda olan bütün hissəsi tam nəzarətə götürüldü. Bu, cənub cəbhəsində əməliyyatların operativ-texniki təminatını yaxşılaşdırdı, düşmənin təchizatını kəsdi və regionda yeni təhlükəsizlik arxitekturası bərpa olundu. DSX-nin "Harop," "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, zenit-raket kompleksləri, o cümlədən 8 ədəd "S-300" raket kompleksi, tankları, zirehli döyüş maşınları, komanda-idarəetmə məntəqələri, ümumilikdə 291 hədəfi zərərsizləşdirildi.

Bu gün DSX azad edilmiş ərazilərdə sərhəd-gömrük infrastrukturu və sərhəd zastavalarının yerləşdirilməsi, nəzarət-keçid məntəqələrinin işinin bərpası, mina-təhlükəsizlik qaydaları daxil olmaqla kompleks sərhəd təhlükəsizliyinin qurulması istiqamətində mühüm tədbirlər həyata keçirir. Azərbaycan hərbçiləri dövlət sərhədində üçrəngli bayrağımız altında milli maraqlarımızı qürurla, fəxarətlə qoruyur. Bəli, sərhədin keşiyində dayanmaq, onu qorumaq vətənə sədaqətin ən ali ifadəsi, müqəddəs borc, şərəfli fəaliyyət, həm də vətənə xidmət nümunəsidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**